COP29 Baku Azerbaijan

Yaşıl dünya naminə həmrəy olaq!

Bakı konfransı iqlim diplomatiyasının dönüş nöqtəsidir

İqlim danışıqlarında tarixi nəticələr əldə olundu

Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının gedişi və uğurlu yekunları planetimizin sabahını, bəşərin taleyini düşünənlər üçün günəş kimi doğdu, "yaşıl dünya" naminə həmrəylik nidası kimi əsk-səda verdi. Bəşər üçün həyəcan təbili çalan bu tədbirin ölkəmizdə mütəşəkkil keçirilməsi onun uğuruna kölgə salmaq istəyən bədxahların gözünü qamaşdırdı, siyasi "korluğa" uğratdı. Bakı tədbirində 80 ölkədən 76 mindən çox xarici qonaq iştirak etdi, tədbirin gedişini 3 mindən çox xarici media nümayəndəsi işıqlandırdı.

Konfransın gedişi, işgüzar iclaslar, seminar və görüşlər haqqında operativ məlumatlar tərəqqipərvər dünyanın kütləvi informasiya vasitələrində, ictimai mediada geniş əks-səda tapdı. Ölkə başçısının "COP29-da inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında qarşılıqlı anlaşmanın əldə edilməsi üçün əlimizdən gələni edəcəyik" - qətiyyəti həyat həqiqətinə çevrildi. Müxtəlif beynəlxalq aktorlar arasında siyasi, mədəni, enerji, ticarət və nəqliyyat körpüləri qurmaq üçün keçirilən işgüzar müzakirələr, bəşəriyyətin həyat əhəmiyyətli probemlərin həllinə yönəli məqsədyönlü siyasətin uğuru və qətiyyəti Azərbaycan Prezidentinin uzaqgörənliyini bir daha sübut etdi, onun Forumun ilk günlərindən müxtəlif ölkələrdən olan həmkarları ilə bir sıra ikitərəfli görüşləri nailiyyətin sanballı təməlinə çevrildi. Heç təsadüfi deyildir ki, COP29-da iştirak edən, onun beynəlmiləl əhəmiyyətinə obyektiv qiymət verən dünya liderləri ölkəmizdə keçirilən tədbirin mütəşəkkilliyini, beynəlxalq əks-sədasını yüksək qiymətləndirdilər. Təşkilatçılıq bacarığı, qonaqpərvərlik və peşəkarlığı yüksək qiymətləndirən Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif, Misirin Baş naziri Mustafa Madbuli, İtaliya hökumətinin başçısı Corcia Meloni, Konqo Demokratik Respublikasının Baş naziri Cudit Suminva Tuluka və digər yüzlərlə qonaq konfransı və müzakirə edilən məsələlərin vacibliyini sözün əsl mənasında bəşəriyyət üçün Buhenvalt harayı kimi dəyərləndirdi, onu "sülh naminə iqlim təşəbbüsünün bir hissəsi" adlandırdılar.

Gürcüstan hökumətinin başçısı İrakli Kobaxidze BMT-nin İqlim Konfransının ilk dəfə Qafqazda keçirilməsini çox yüksək nailiyyət kimi qiymətləndirdi və belə bir nüfuzlu beynəlxalq tədbirin yüksək peşəkarlıqla təşkilinin qürurverici olduğunu qeyd etdi.

Özbəkistanın ekologiya naziri Aziz Abduhakimovun təəssüratı da qürurvericidir. Tədbirin çox yüksək səviyyədə təşkil olunduğunu xüsusi vurğulayan nazir demişdir ki, Azərbaycandan olan həmkarlarımı və dostlarımı konfransın uğurla keçirilməsi münasibətilə təbrik edirəm. Hər şey ən yüksək səviyyədə təşkil olundu və mütəşəkkilliklə başa çatdı. Özbəkistanlı nazir konfransda qəbul edilən qərarların gələcək fəaliyyət üçün proqram xarakterli sənədlər olduğunu xüsusi vurğuladı.

Bu möhtəşəm beynəlxalq tədbirdə Rusiya Federasiyası 47 nəfərlik nümayəndə heyəti ilə iştirak etdi. Əslində belə böyük nümayəndə heyəti ilə iştirak Bakı konfransının planetimiz üçün, bəşəriyyətin sabahı naminə nə qədər əhəmiyyətli olduğuna verilən yüksək qiyməti ifadə etdi. "Rosqidromet"in (Rusiya Hidrometeorologiya və Ətraf Mühitin Monitorinqi üzrə Federal Xidməti) rəhbəri, COP29-da Rusiya nümayəndə heyətinin rəhbər müavini İqor Şumakovun fikirləri Bakı konfransının uğuruna inamın ən gözəl təsdiqidir. "Hər şey əladır. Ev sahibi tərəf, Azərbaycandan olan həmkarlarımız bu miqyasda Forumu təşkil etmək üçün əllərindən gələni ediblər... Təşkilatçılıq ən yüksək səviyyədədir, işləmək bizim üçün çox xoş və rahatdır".

Konfransın gedişi, müzakirə olunan məsələlərin bəşəri əhəmiyyəti haqqında dünya liderlərinin, hökumət rəsmilərinin, alimlərin, QHT-lər və digər maraqlı tərəflərin təəssürat və tövsiyələri, fikir və təklifləri beynəlxalq tədbirin təşkili, gedişi və yekun nəticələrinə dair fikir və təəssüratları, Azərbaycan dövlətinin təşkilatçılıq bacarığına, əməkdaşlığa yönəlik səmimi niyyətlərinə və xalqın qonaqpərvərliyinə verilən yüksək qiymət COP29-un çox yüksək səviyyədə təşkilindən xəbər verir və qlobal problemlərin həllində ölkəmizin etibarlı tərəfdaş və fəal iştirakçı olduğunu ortaya qoydu.

Yüksək təşkilatçılıq, beynəlxalq tədbirin uğurla keçirilməsi həm də onu göstərdi ki, Azərbaycan sülhsevər ölkədir, 44 günlük müharibədə qazanılmış ədalətli qələbə ilə kifayətlənməyib, həm də regionda dayanıqlı sabitlik və əməkdaşlıq üçün ən etibarlı tərəfdaşdır.

Prezident İlham Əliyev bütün dünya qarşısında Ermənistanın işğalçılıq siyasətinin iç üzünü açıb göstərdi, onun yalnız Azərbaycan üçün deyil, regionda sabitlik üçün yaratdığı təhlükəni ortaya qoydu, diqqəti belə təcavüzkar siyasətin zəncirvari yayıla biləcək fəsadlarına diqqəti yönəltdi. Əlbəttə, bu diqqət və narahatlıq bir kibrit çöpünün alışması ilə dünyanı sara biləcək yanğının qarşısının alınmasına yönəlik həyəcan təbili, dinc-yanaşı yaşamaq istəyinə çağırışdır.

Əsas mövzusunun iqlim dəyişmələrinin təsiri və bundan zərər görən ölkələr üçün nəzərdə tutulan maliyyələşdirmə olan COP29 Bakı konfransı ən yüksək səviyyədə təşkil olundu və onun əhəmiyyəti hamılıqla tanındı. Lakin bu uğura baxmayaraq, niyyəti guya ekoloji qayğıya iddia olan bəzi ölkələr COP29-un fəaliyyətinə maneə üçün min oyundan çıxdılar.

Heç təsadüfi deyildir ki, konfransın başlanması ərəfəsində Azərbaycan Respublikasının Prezidenti çox yüksək siyasi uzaqgörənlik və müdrikcəsinə Fransa və bəzi digər ölkələrin ekologiya sahəsindəki ikili standartlarına işarə edərək qətiyyətlə və təəssüf hissilə xatırlatdı ki, onlar keçmiş müstəmləkələrinə istehlakçı münasibətini bu gün də davam etdirir və təbiətlərini məhv edirlər. Azərbaycan Prezidentinin obyektiv mövqeyi və qətiyyəti Parisdə və Brüsseldə çox qəzəblə qarşılandı və haqlı ittihamların "qəbuledilməz" olduğunu bəhanə edərək BMT konfransına qatılmaqdan imtina etdilər. Bu kampaniyanın əsas dirijoru olan Fransa və Avropa İttifaqının bəzi üzvləri COP29-da iştirakın qarşısını almaq üçün bəzi ölkələrə təsir göstərməkdən də çəkinmədilər. Fransa Afrika ölkələrinin, xüsusilə də Nigeriya və Toqonun rəhbərliklərinin Azərbaycana səfərinə mane olmaq üçün dəridən-qabıqdan çıxdı. Amma sağlam düşüncə qalib gəldi, Toqo prezidenti də daxil olmaqla Afrika qitəsinin nümayəndələri Bakı konfransında iştirak etdilər.

İsveçrəli ekofəal Qreta Tunberq daha həyasız addım atdı. Bu üzdəniraq ekofəal İrəvanda BMT binası qarşısında etiraz aksiyası keçirərək dünya ictimaiyyətini COP29 konfransının Bakıda keçirilməsinə qarşı etiraz aksiyasına çağırdı, amma sağlam düşüncə belə üzdəniraqlığın mahiyyətini dərk edirdi, ona görə də bu qarayaxma küləyə qarşı tüpürmə effekti yaratdı.

Aİ-nin xarici işlər və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Jozef Borrelin Fransaya dəstək ifadə edən eyni bəyanatı da özünə tərəfdar tapmadı.

Ermənistan nümayəndələri də İqlim konfransına qatılmadı. Onlar Fransa himayədarlarının təsir dairəsindən çıxa bilmədilər. Halbuki COP29-un keçirilməsinə namizəd ölkələr arasında onun da adı vardır və bu beynəlxalq tədbirin məhz Bakıda keçirilməsini onlar yekdilliklə razılıq ifadə etmişdilər. Heç təsadüfi deyildir ki, Xəzər Strateji Araşdırmalar İnstitutunun baş direktoru İqor Korotçenko ermənı tərəfinin Bakı konfransında iştirakdan imtina etməsini siyasi demarş kimi ifadə etmiş və demişdir ki, "bu qərarın arxasında heç nə dayanmır".

Bakı konfransının ən yüksək səviyyədə təşkil olunmasına və onun əhəmiyyətinin hamılıqla tanınmasına baxmayaraq, sözdə guya ekoloji qayğıya "iddia edən" bəzi ölkələrin COP29-a qərəzli yanaşması əksər iştirakçılar üçün anlaşılmaz olsa da, Prezident İlham Əliyev haqlı olaraq qeyd etdi ki, əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərs vermək adəti və siyasi riyakarlıq Qərb ölkələrindəki bəzi siyasətçilər, dövlət nəzarətində olan QHT-lər və feyk-xəbər mediası üçün fəaliyyət metoduna çevrilib. Azərbaycan COP29-a ev sahibliyi edən ölkə kimi seçildikdən sonra biz hədəfə çevrildik və bu, qarayaxma kampaniyası idi.

Sağlam düşüncə, planetimizdə iqlim dəyişmələrinin təsirinin və onun təsirindən zərər görən ölkələr üçün nəzərdə tutulan maliyyələşmə məsələləri öz uğurlu həllini tapdı.

Bu uğur BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının yekunlarına dair bəyanatında öz parlaq əksini tapdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də sosial şəbəkə hesablarında "COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!" sərlövhəli paylaşımında əldə edilmiş uğurlar barədə qürurla söhbət açaraq qeyd etdi ki, "müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək.

Genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu...

Mən Bakı nailiyyətini çoxtərəfliyin təntənəsi kimi qiymətləndirirəm. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və mən inanıram ki, bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək".

Bakı konfransı COP-un tarixinə parlaq və şərəfli səhifə kimi yazıldı.

Vaqif TANRIVERDİYEV,
"Respublika".